

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 oktyabr 2022-ci il №82 (2693) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və gözəl nəticələr verir

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zəngilan Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşılayıb.

* * *

Oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər.

Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.

"Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Azərbaycan və Türkiyə prezidentlərinə hava limanı barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Komplekslə tanışlıq zamanı prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdılar.

**Jurnalist**: Xeyirli-uğurlu olsun.

Prezident **İlham Əliyev**: Salam.

**Jurnalist**: Bir il əvvəl gələndə də açılış var idi.

Prezident **Rəcəb Tayyib Ərdoğan**: O vaxt daha yeni təməllər qoyulurdu. Baxın, indi necə olub?

**Jurnalist**: Yaşıl sahəyə çevrilib.

Prezident **Rəcəb Tayyib Ərdoğan**: Heyvanlar da gətirildi xaricdən. Həm bunları çoxaldırlar, həm də kəsim aparılır. Abdulkadir də burada məsul şəxsdir.



**Jurnalist**: Cənab Prezident, kompleks daha da böyüyəcəkmi?

Prezident **İlham Əliyev**: Abdulkadir bəydən asılıdır.

Prezident **Rəcəb Tayyib Ərdoğan**: Rəhbər odur, o, necə istəsə, elə də olacaq.

**Abdulkadir**: Təbii ki, böyüyəcək. İnşallah, Laçında davam edəcəyik.

Prezident **İlham Əliyev**: Təbii ki, böyüməlidir. Çünki cəmi bir il ərzində belə böyük işin görülməsi artıq gözəl bir nümunədir.

Prezident **Rəcəb Tayyib Ərdoğan**: Dünya artıq kənd təsərrüfatına, heyvandarlığa yönəlib. Başqa çarələri yoxdur.

Prezident **İlham Əliyev**: Keçən il biz burada idik. Boş bir sahə idi, heç nə yox idi. Keçən ilin oktyabr ayında təməlini qoyduq. İndi baxın, bir il keçib, görün, nə qədər gözəl işlər görülüb.

**Jurnalist**: Bundan sonra hava limanı harada açılacaq?

Prezident **İlham Əliyev**: Laçında.

**Jurnalist**: Nə zaman açılacaq?

Prezident **İlham Əliyev**: 2024-cü, yaxud 2025-ci ildə ola bilər.

Prezident **Rəcəb Tayyib Ərdoğan**: O qədər də uzatma.

Prezident **İlham Əliyev**: Çünki orada bir dənə də düz yer yoxdur. Böyük torpaq işləri görməliyik. Çünki uçuş-enmə zolağını salmaq üçün biz dağları kəsirik. Odur ki, əsas vaxt ona gedir. Hələ ki, inşaat işləri başlanmayıb. Hələ biz bir il o dağları kəsə-kəsə gedirik. İnşallah, iki ildən, bəlkə də iki il yarımdan sonra Laçında da hava limanı olacaq. İnşallah, Qardaşım da gələcək, bərabər açacağıq.

Prezident **Rəcəb Tayyib Ərdoğan**: İnşallah.

Sonra dövlət başçıları komplekslə tanış olublar.

Daha sonra konsert proqramı təqdim edildi və kompleks barədə videoçarx nümayiş olunub.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış ediblər.

Prezident **İlham Əliyev** dedi:

- Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu, bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdır.

Əziz qardaşımı və onunla bərabər Azərbaycana gəlmiş bütün türk bacı-qardaşlarımızı səmimiyyətlə salamlayıram, "Xoş gəlmisiniz!" deyirəm. Biz düz bir il bundan əvvəl, bax, burada idik, o zaman bura boş sahə idi, heç nə yox idi. Burada "Aqropark"ın təməlini qoyduq. Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir.

Burada qeyd olundu ki, bu gün Zəngilan üçün xüsusi bir gündür. Düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilmişdir. Zəngilanın 27 illik işğalı sona çatmışdır. Məhz bu gündə Zəngilanda olmağınız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu "Aqropark"ın açılışını etməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Bu "Aqropark"ın yaradılmasında əməyi olan hər bir kəsə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Burada qeyd olundu ki, bu, birinci özəl sərmayədir. Artıq bu "Aqropark"ın genişləndirilməsi və digər rayonlarda bu kimi aqroparkların yaradılması bu gün də müzakirə edilmişdir. Xeyirli olsun, uğurlu olsun!

Prezident **Rəcəb Tayyib Ərdoğan** dedi:

- Hörmətli qardaşım İlham Əliyev ilə birlikdə bir il əvvəl burada bu "Aqropark"ın təməlini qoymuşduq. İndi qardaşımla birlikdə görülən işləri, qoyulan sərmayəni bu gün birlikdə gözlərimizlə gördük. İndiyədək təxminən 3 min baş cins qaramalın buraya gətirilməsini və bunun, İnşallah, hədəf olaraq 10 min başa çatdırılmasını, haradan-haraya deyərək müəyyən etdik.

Müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib. Gələrkən İlham qardaşımla bu barədə danışdıq, indi qısa vaxtda - iki-iki il yarım ərzində su anbarını da inşa edəcəyik dedi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək. Bu bərəkətli torpaqlarda, İnşallah, heyvandarlıqla yanaşı, buğda, qarğıdalı, arpa yetişdiriləcək.

Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, İnşallah, dənələrə çevriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək. Bunu unutmayaq, artıq heyvandarlığın, kənd təsərrüfatının dünyada mühüm yer tutmalı olduğu bir zamana giririk. Əminəm ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, İnşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək.

Mən başda İlham qardaşım olmaqla "Dost Aqropark"ın rəhbərlərinə çox-çox təşəkkür edirəm, onları təbrik edirəm.

İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm.

Gördüyünüz kimi, indi əlimdə qızıl qulplu qayçı var. Bu, ikincidir. Hava limanını açarkən bir dənə aldıq, birini də indi aldıq. Aqroparkımız xeyirli olsun.

Daha sonra dövlət başçıları "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsiblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoyublar.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz-Ağbənd dəmir yolu xətti və Qumlaq stansiyası, eləcə də Ələt-Ağbənd-Naxçıvan-Qars dəmir yolu layihəsi barədə məlumat verib.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və gözəl nəticələr verir





**(Əvvəli 1-ci səhifədə)**

Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin oktyabrın 20-də təməlqoyma mərasimi keçirilib, əraziyə 15 baş ceyran buraxılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verib.

Sonra Azərbaycan və Türkiyə prezidentləri ərazidə ağac əkiblər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan əraziyə ceyranlar buraxıblar.

* * *

Oktyabrın 20-də Cəbrayıl şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi keçirilib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verib.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamlayıb.

Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti Azərbaycan Prezidentinə təqdim olunub.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçib.

* * *

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

Sonra Azərbaycan və Türkiyə prezidentləri söhbət ediblər.

**(Ardı 3-cü səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl və Qubadlı rayonlarına səfər ediblər.*



Dövlətimizin başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli-Cəbrayıl hissəsinin açılışında iştirak edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin layihəsi ilə tanış oldular. Dövlətimizin başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 ceyranın buraxılması mərasimində iştirak ediblər.



Dövlətimizin başçısı Cəbrayılda 35 kilovoltluq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, 330-110 kilovoltluq beynəlxalq "Cəbrayıl" Qovşaq Yarımstansiyasında aparılan tikinti işləri ilə tanış olub.

Prezident İlham Əliyev Qubadlı rayonunda "Bərgüşadçay" və "Zabuxçay" su anbarlarının layihələri ilə tanış olub, Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub.

Dövlətimizin başçısına və birinci xanıma Qubadlı şəhərinin Baş planı təqdim olunub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlıda İşğal və Zəfər muzeylərinin,"Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Zəngilan rayonu Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi və sakinlərlə görüşüb.

Ağalı kənd məktəbində təhsil alan şagirdlərlə görüş zamanı səmimi söhbət edən Prezident İlham Əliyev dedi:

Bax, sizi biz qaytarmışıq, havası da təmizdir, təbiəti də gözəldir, hər tərəf dağlar, meşələr. Burada həyat qaynayacaq. Bir azdan sonra başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu yəqin ki, Ağalını heç görməyiblər. Onlar da işğal dövründə dünyaya gəliblər. Amma torpaq çəkir insanı. Sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər.




Siz də yaxşı oxuyun. Çünki yaxşı oxumaq təkcə sizin üçün yox, ölkəmiz üçün lazımdır. Çünki sizin kimi uşaqlar gələcəkdə ölkəmizi idarə edəcəklər. Ona görə gərək siz bilikli olasınız, həmişə vətənpərvər olasınız. Vətənpərvər olmaq üçün hər bir Azərbaycan vətəndaşının çox böyük haqqı var. Çünki biz bu torpaqlara qan tökərək qayıtmışıq. Bizim qəhrəman şəhidlərimiz öz canlarını fəda ediblər ki, bax, siz və sizin kimi yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağına qayıtsın. Sabah Zəngilanın, Zəngilan şəhərinin azad olunmasının ikinci ildönümüdür. Zaman tez keçir, ancaq artıq böyük quruculuq işləri görülür. Sizin əsas vəzifəniz oxumaqdır, valideynlərin, müəllimlərin sözünə baxmaqdır və gələcəkdə yaxşı vətəndaş olmaqdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Arximed turbini tipli Su Elektrik Stansiyasını işə salıb, Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olub, Zəngilan şəhərində ilk yaşayış binasının və məktəbin təməlqoyma mərasimlərində iştirak ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və gözəl nəticələr verir





(Əvvəli 2-ci səhifədə)

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Əziz qardaşım, hörmətli Cümhurbaşqanı.

Əziz qonaqlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Əziz qardaşımı Cəbrayılda, Zəngilanda salamlamaq, "Xoş gəlmisiniz!" demək mənim üçün böyük şərəfdir. Bu gün biz birlikdə Zəngilan Hava Limanının açılışını qeyd etdik. Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli Hava Limanını bir yerdə açdıq, bu gün Zəngilan Hava Limanını açdıq. Yəni, bu, onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik.




Bugünkü gün Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli bir gündür. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır.

Zəngilanın azad olunmasından bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçın istiqamətində irəliləməyə başlamışdı, digər qruplaşma isə Şuşaya istiqamət götürmüşdü. Alınmaz qala sayılan Şuşa noyabrın 8-də erməni işğalından azad edildi, Azərbaycan Bayrağı qaldırılmışdır və ondan sonra Ermənistan təslim oldu.



Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ın açılışını birlikdə qeyd etdik. Bu da bu bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da - "Dost Aqropark" özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görür. Yolların, - yolların bir hissəsi artıq hazır vəziyyətdədir, - dəmir yolları, eyni zamanda, 33 tunelin inşası nəzərdə tutulmuşdur. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumi uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü tikiləcək, onların bir qismi inşa edilmişdir. Körpülərin ümumi uzunluğu 12 kilometrdir. Bu, ancaq birinci mərhələdə görülən və görüləcək işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik.

Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində, Cəbrayıl şəhəri yoxdur, çünki bax burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerləbir etmişlər. Cəbrayıl şəhərindən bax bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerləyeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yəni, o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər.





Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu. Bütün sahələrdə müttəfiq oldu və bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

Əziz Qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.

İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Bu gün əziz Qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Əziz Qardaşım, bu əziz gündə bizimlə bərabər olduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə xalqına xoşbəxtlik, sülh arzulamaq istəyirəm. Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

(Ardı 4-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və gözəl nəticələr verir

(Əvvəli 3-cü səhifədə)

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış edib.

**Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

- Hörmətli cənab Prezident, əziz Qardaşım.

Hörmətli nazirlər.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə salamlayıram.

Əvvəlcə, Can Azərbaycanın iki gün əvvəl qeyd etdiyi Müstəqilliyin Bərpası Gününü bir daha təbrik edirəm.

İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını həqiqətən müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir. İndi sağıma, soluma baxıram, işğal dövründə Cəbrayılı nə hala salmışlar. Mən Qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər.

Amma bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq.

Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gələnən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu



qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır.

Bu gün Zəngilanda açılışını etdiyimiz Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm bir layihədə türk şirkətlərinin də yer alması bizim üçün də ayrıca bir iftixar mənbəyidir.

Azərbaycanlı qardaşlarımızın azad edilən torpaqlara qayıtmağa başlamaları da bizi həddindən artıq sevindirir. Böyük Qayıdış prosesi çərçivəsində azərbaycanlı qardaşlarımızın "Ağıllı kənd" konsepsiyasına uyğun inşa edilən Ağalı kəndində məskunlaşmaları ilə Vətən həsrətlərinin, İnşallah, başa çatdığını görürük. Ağalı kəndini gördük, oraya bundan sonra artıq kənd deyə bilmərik. Ora artıq müasir bir şəhər kimi inkişaf edir.

Onun yanında "Dost Aqropark"ı gördük, orada kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsində həqiqətən çox mühüm addım atılmışdır. Bir il əvvəl təməlqoyma mərasiminə gələndə çox fərqli bir ərazi idi. Amma indi kənd təsərrüfatı sahəsində çox ciddi iş görülərək bu ərazinin necə dirçəldildiyini gördük. Burada təxminən üç min baş cins qaramalın olması, bu imkanın da dəyərləndirilərək bir tərəfdən onların kəsimi, digər tərəfdən bəslənməsi, artırılması - bu istiqamətdə görülən işlərlə bu addım həqiqətən də Böyük Qayıdış layihəsinin həyata keçirilməsidir.

Yolda gələrkən hörmətli Qardaşım bəzi məsələləri də mənə izah etdi. Misal üçün, burada ən önəmli məsələ sudur. Su məsələsinə gəldikdə, qısa müddətdə burada su anbarının inşası ilə bu problem də aradan qaldırılacaq. Beləliklə, bu tarlalarda kənd təsərrüfatının inkişafı sayəsində çox ciddi nəticə əldə edəcəklərini söylədilər, həqiqətən bizim də gördüyümüz və inandığımız budur.





Çox qısa müddətdə burada kənd təsərrüfatı sahəsində də ciddi nəticələrin əldə edilə biləcəyini gördük. Ot bağlamalarının düzülüşü bizə o nəticəni göstərir. Biz də tədbiri ot bağlamalarının üzərində oturaraq izlədik. Buna görə də təbrik edirik. Yəni, minaların yerini artıq bunlar alıb. İnfrastruktur problemini tamamilə aradan qaldırmağa çalışırlar. Zənn edirəm ki, bir ildən sonra gələndə Cəbrayıl yolunun çox fərqli vəziyyətdə olacağını görəcəyik. Çünki burada da infrastruktur məsələləri ilə bağlı ciddi addımlar atılır. Burada da "Cengiz", "Kalyon" şirkətlərinin müştərək fəaliyyəti ilə bu addımlar da atılmışdır. Ötən səfərimdən bir il sonra burada asfaltlanma işlərinin aparıldığını, körpülərin inşa olunduğunu, bu gün təməlini qoyduğumuz dəmir yolu ilə bağlı addımların atıldığını gördük. Dəmir yolunun buraya gətirilməsi buradakı inkişaf hərəkatının həqiqətən böyük bir layihə olaraq necə sürətlə həyata keçirilməsinin nümayişi baxımından böyük önəm daşıyır.

Qarabağın inkişaf planı çərçivəsində başda kənd təsərrüfatı, "yaşıl enerji" və "ağıllı şəhərlər" olmaqla, bütün layihələrdə Türkiyə Azərbaycanın yanında olmağa hazırdır.

Artıq həmrəylik əsasında atdığımız addımlar var. Bunları inkişaf etdirərək daha mühüm və nəhəng layihələri birlikdə həyata keçirməyə hazırıq. Təbii ki, mühüm addımlardan daha biri olan - Cəbrayılda təməlini qoyduğumuz "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi də həmrəyliyimizin rəmzidir.



Hörmətli media nümayəndələri, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni, artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq-Qərb, Orta Dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.

Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib, 30 ildir verilməyən haqqını geri alıb. Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir.

Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşdırma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır.

Hörmətli media nümayəndələri, Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da "Heydər Əliyev İli" olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik.

Sözlərimi bu düşüncələrlə yekunlaşdırarkən şəxsən mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə xüsusilə millətim adından minnətdarlığımı ifadə edir, təşəkkürümü bildirirəm.

Rəbbim birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri oktyabrın 20-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zəngilan Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yola salıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın müdafiə naziri özbəkistanlı həmkarı ilə görüşüb







Oktyabrın 19-da Özbəkistan Respublikasının müdafiə naziri general-leytenant Baxodir Kurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, Şəhidlər xiyabanında isə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklil və gül dəstələri qoyub.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi keçirilib. Fəxri qarovulun önündən keçildikdən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib. General-leytenant B.Kurbanov protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.



Qonaqları salamlayan müdafiə naziri general-polkovnik Zakir Həsənov onları Azərbaycanda görməkdən məmnunluğunu bildirib, ölkələrimiz arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb.

Müdafiə naziri özbəkistanlı həmkarını Ermənistan silahlı birləşmələrinin son təxribatlarına qarşı ordumuz tərəfindən görülən qətiyyətli cavab tədbirlərindən sonra yaranmış əməliyyat şəraiti, eləcə də ordu quruculuğu sahəsində görülən işlər barədə məlumatlandırıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən Özbəkistanın müdafiə naziri səmimi qəbula görə öz minnətdarlığını bildirib, qarşıdan gələn Zəfər Günü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan ilə Özbəkistan arasında müdafiə sahəsində əməkdaşlığın hər iki ordunun daha da güclənməsinə xidmət etdiyini xüsusi qeyd edib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2023-cü il üçün ikitərəfli əməkdaşlıq Planı" imzalanıb.

Sonda Mərkəzi Komanda Məntəqəsinə gələn nümayəndə heyəti buranın komanda idarəetməyə dair texniki imkanları və ümumilikdə görülən işlərlə tanış olub.





**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Özbəkistanın müdafiə naziri hərbi hissələri ziyarət edib



Ölkəmizdə rəsmi səfərdə olan Özbəkistan Respublikasının müdafiə naziri general-leytenant Baxodir Kurbanov Hərbi Hava Qüvvələri (HHQ) və Hərbi Dəniz Qüvvələrinin (HDQ) hərbi hissələrini, həmçinin Milli Müdafiə Universitetini ziyarət edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları onu müşayiət edən Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevlə birgə əvvəlcə HDQ-nin hərbi hissəsi ərazisində şəhidlərin xatirəsinə ucaldılan abidə önünə gül dəstələri düzərək xatirələrini hörmət və ehtiramla yad edib.



Qonaqlara hərbi hissə haqqında ətraflı brifinq təqdim edildikdən sonra burada şəxsi heyət üçün yaradılan şərait ilə praktiki tanışlıq keçirilib.

Yeməkxana, yataqxana, inzibati və xidməti otaqlar ziyarət edilib, hərbi hissənin silahları və digər döyüş vasitələri barədə ətraflı məlumat verilib.



Özbəkistan nümayəndə heyəti dəniz xüsusi təyinatlılarının nümayiş məşğələlərini izləyib.

Sonra general-leytenant B.Kurbanov HHQ-nin pilotsuz uçuş aparatları hərbi hissəsinə gələrək burada yaradılan şəraitlə tanış olub və döyüş vasitələrinin imkanları barədə məlumatlandırılıb.

Daha sonra qonaqlar Milli Müdafiə Universitetini ziyarət edib. Onlara Universitetin tarixi, fəaliyyəti və ümumilikdə hərbi təhsil sistemi ilə bağlı geniş brifinq təqdim olunub. Özbəkistan müdafiə naziri universitetin xatirə kitabına ürək sözlərini yazıb.

Yekunda müasir avadanlıqlarla təchiz edilmiş simulyasiya mərkəzinə gələn qonaqlar burada hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış olub, mərkəzin fəaliyyəti ilə bağlı onlara ətraflı məlumat verilib.

# Naxçıvan Muxtar Respublikasının strateji yüksəkliklərində müdafiə istehkamları möhkəmləndirilib



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev deyib: "Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir". Bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb. Xalqımızın mübarizə və qəhrəmanlıq tarixini özündə yaşadan Naxçıvan etibarlı müdafiə olunur. Əlahiddə Ümumqoşun Ordunun dağ şəraitində və hakim yüksəkliklərdə yerləşən hissə və bölmələrində nümunəvi xidmət şəraiti yaradılıb. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq digər bölgələrdə olduğu kimi, Havuş və Buzqov istiqamətlərində də müdafiə mövqelərində xidmət şəraiti yaxşılaşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Havuş və Buzqov bölgələrində olub, mövqelərin mühəndis cəhətdən təkmilləşdirilməsi, mühəndis fortifikasiya qurğularının hazırlığı, şəxsi heyətin xidmətinin təşkili və məişət şəraiti ilə maraqlanıb.

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb, şəxsi heyətə təşəkkür elan edib, yaradılan şəraitlə maraqlanıb, komanda müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti, mövcud topoqrafik və taktiki şəraitlə tanış olub.

Məlumat verilib ki, bu istiqamətdə şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması üçün 5 məntəqə yenidən tikilib, onlar elektrik enerjisi, təbii qaz və bütün növ mebel avadanlıqları ilə təmin olunub, 4 məntəqədə isə əsaslı təmirbərpa işləri görülüb. Mövqelərarası 20 kilometrdən artıq təminat yolları təkmilləşdirilib və ələvə olaraq 6 kilometrə yaxın təminat yolu çəkilib. Mövqelər beton sığınacaqlarla təmin olunaraq müdafiənin dayanıqlılığı artırılıb. Bütün mövqelər ərzaq, əşya, su, yanacaq və odunla təmin olunaraq qış ehtiyatı yaradılıb. Mövqelərdə sənaye işığı ilə yanaşı, alternativ və bərpaolunan enerji mənbələrindən də istifadə olunması üçün günəş panelləri quraşdırılıb.

Çətin dağlıq şəraitdə yerləşən mövqelərdə müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb. Əsas və ehtiyat səngərlər, mövqelər və müşahidə məntəqələri yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müdafiə mövqelərində olub.

Kapitan Elgiz Yusifli, əsgərlərdən Nicat Həmidli, Nəsbala Həsənov, Qurban Eyvazov və Teymur Quliyev minnətdarlıq edərək şəxsi heyətin qayğı ilə əhatə olunduğunu bildirib, düşmənin hər hansı təxribatına layiqincə cavab veriləcəyini qeyd ediblər.

Sonra şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Birimiz hamımız, hamımız birimiz üçün!" şüarını səsləndiriblər.

Bildirilib ki, muxtar respublikanın düşmənlə təmas xəttində yerləşən Havuş və Buzqov bölgələrindəki mövqelərdə etibarlı müdafiə sistemi qurulub. Bu yüksəkliklərdə peşəkar və yüksək döyüş hazırlığına malik olan əsgər və zabitlərimiz üçün nümunəvi xidmət şəraiti yaradılıb. Dayanıqlı mühəndis istehkam qurğuları və əsgərlərimizin bilik və bacarığı mövqelərin etibarlı müdafiəsinə təminat verir. Şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, peşəkarlığı istənilən tapşırığı uğurla icra etmək imkanı yaradır.





Sonra Ali Məclisin Sədri digər mövqelərdə də olub, xidmətin təşkili və hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti ilə maraqlanıb.

Bildirilib ki, yenidən qurulan yataqxana, yeməkxana, əşya, ərzaq anbarları və digər binalarda təhlükəsiz və rahat şəraitdə xidmətin təşkili təmin olunub. Ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Qarşıdan gələn soyuq qış aylarında da xidmətin nümunəvi təşkili üçün ön xətt mövqelərində lazımi ehtiyat yaradılıb.

Mövqelərdə ideoloji işin təşkili və mənəvi-psixoloji hazırlığın artırılması diqqətdə saxlanılır. Əsgərlərin asudə vaxtının səmərəli keçirilməsi üçün də lazımı şərait yaradılıb, Ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən, Vətən müharibəsində qazanılan tarixi qələbədən bəhs edən kitablar, qəzet və jurnallar şəxsi heyətin istifadəsinə verilib. Burada əsgərlər dövri mətbuatla tanış olur, hərbi və bədii ədəbiyyatları mütaliə edirlər.

Ali Məclisin Sədri şəxsi heyətin qidalanması ilə maraqlanıb.

Məlumat verilib ki, əsgərlərin qidalanması da günün nizam qaydasına uyğun təşkil olunur. Anbarda ərzaq ehtiyatı yaradılıb. Yüksək kalorili məhsulların qida rasionuna daxil edilməsi qış aylarında əsgərlərin sağlamlığının qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Əşya anbarı da lazımi geyim dəstləri və digər məişət avadanlıqları ilə təmin edilib.

Sonra Ali Məclisin Sədri Buzqov bölgəsində yerləşən mövqelərdə də olub, əsgər və zabitlərlə görüşüb, mövqelərin möhkəmləndirilməsi, təkmilləşdirmə işlərinin davam etdirilməsi barədə müvafiq tapşırıqlar verib.

Gətirilmiş 2 tona yaxın meyvə, tərəvəz və ərzaq məhsulları, 23 televizor, 3500 dəst isti geyim, 10 min qutu siqaret anbarlara təhvil verilib.

### Etibarlı müdafiə sistemi sərhəd kəndlərində rahat yaşayışa təminat verir

Oktyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Havuş kəndinə gəlib, kənd tam orta məktəbində dərs prosesi ilə maraqlanıb, pedaqoji kollektivlə söhbət edib. Bildirilib ki, məktəb bu il yüz faizlik nəticə göstərib.

Sonra Ali Məclisin Sədri şagirdlərə hədiyyələr təqdim edib.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Valeh Musayev məlumat verib ki, kənd əhalisi əsasən, heyvandarlıq, bağçılıq, arıçılıqla məşğul olur. Kəndin ərazisində dərman bitkiləri yetişir ki, onlar da toplanaraq festivallarda, yarmarkalarda satışı həyata keçirilir. Kənddə məskunlaşma artıb. Son altı ildə kənddə 18 yeni ev tikilib. Hazırda isə iki evdə tikinti işləri aparılır.

# "Qafqaz Qartalı-2022" adı altında Gürcüstanda keçirilən hərbi təlimlər başa çatıb



"Qafqaz Qartalı-2022" adı altında xüsusi təyinatlı qüvvələrin Gürcüstanda keçirilən hərbi təlimləri başa çatıb.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 20-də Tbilisi yaxınlığındakı Vaziani hərbi bazasında təlimlərin rəsmi başa çatması ilə əlaqədar tədbir keçirilib.

Mərasimdə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze, Azərbaycanın Gürcüstandakı Səfirliyinin hərbi attaşe aparatının rəhbəri polkovnik-leytenant Fuad İbrahimov, eləcə də Türkiyə səfirliyinin və Gürcüstan Müdafiə Qüvvələrinin rəhbər heyəti iştirak ediblər.

Bildirilib ki, Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirak etdiyi təlim uğurla başa çatıb.

Qeyd edək ki, oktyabrın 10-da Muxrovani hərbi bazasında təlimlərin açılış mərasimi olmuşdu.

Xatırladaq ki, Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlılarının iştirak etdiyi "Qafqaz Qartalı" adlı birgə təlimlər hər il təşkil olunur.

# Ankarada Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq sahəsində dinamik inkişafın istiqamətləri müzakirə olunub



Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdində Silahlı Qüvvələrin Hərbi Attaşelik Aparatının nümayəndələri ilə Türkiyə Hərbi Hava Qüvvələrinin Komandanı vəzifəsinə yeni təyin olunmuş ordu generalı Atilla Gülan arasında görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Ankarada keçirilən görüşdə Azərbaycan Müdafiə Nazirliyi ilə Türkiyə Milli Müdafiə Nazirliyi arasında ikitərəfli münasibətlər ətrafında fikir mübadiləsi aparılıb.

Hərbi attaşe polkovnik Müşfiq Məmmədov 44 günlük Vətən Müharibəsi və işğaldan azad olunmuş ərazilərimizdə aparılan sürətli quruculuq işləri barəsində ordu generalı Atilla Gülana ətraflı məlumat verib. Vətən müharibəsində qazanılmış parlaq Qələbənin regionda yeni reallıqlar yaratdığını, dayanıqlı sülh və sabitlik üçün əlverişli şəraitin formalaşdığını, post-münaqişə dövründə bölgədə sülhün, təhlükəsizliyin və inkişafın təmin olunması üçün mövcud vəziyyəti diqqətə çatdıran hərbi attaşe Azərbaycanın sülhsevər mövqeyi və atdığı addımlardan, nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində görülən işlərdən bəhs edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün münasibətlərin, o cümlədən hərbi əməkdaşlığın qardaşlıq və dostluq üzərində qurulduğu xüsusi vurğulanıb. Hər iki ölkə arasında müdafiə sahəsində işçi əlaqələrin və əməkdaşlığın davam etdirilməsinin zəruriliyi qeyd olunub.

# Türkiyədə keçirilən taktiki təlim başa çatıb





*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq üzrə fəaliyyət planına əsasən, qardaş ölkənin Hərbi Dəniz Donanmasında təcrübə keçən hərbi qulluqçularımızla İzmir şəhərinin Foça dəniz bazasında taktiki təlim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.



Foça hərbi dəniz bazasının komandiri kontr-admiral Mustafa Biçenin rəhbərliyi ilə Egey dəniz sularında keçirilən taktiki təlimin yekununda təlimdə icra olunan tapşırıqlar təhlil edilib.

Təlimin yekununda çıxış edərək iştirakçılara öz tövsiyələrini verən kontr-admiral M.Biçen zabitlərimizə gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonda xatirə şəkili çəkdirilib.

# Mövqelərimiz atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 20-si saat 16:30-dan saat 17:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf və Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutub.

Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Təminat daşıyan texnikamız atəşə tutulub



Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 20-si gecə saatlarında Basarkeçər rayonunun Günəşli və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf, Kəlbəcər rayonunun Zəylik və Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bundan əlavə Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində bölmələrimizə təminat daşıyan 1 ədəd KamAZ markalı avtomobil də Ermənistan hərbi bölmələri tərəfindən atəşə məruz qalıb.

Texnikaya zərər dəysə də şəxsi heyət arasında xəsarət alan olmayıb.

# Xəbərlər: hadisələr, faktlar

## Koreya birgə hərbi təlimlər keçirəcək



Cənubi Koreya və ABŞ oktyabrın 31-dən noyabrın 4-dək 200-dən çox təyyarənin iştirakı ilə genişmiqyaslı birgə Hərbi Hava Qüvvələri (HHQ) təlimi keçirməyi planlaşdırır.

Təlimlərdə Cənubi Koreyadan F-35A, F-15 və KF-16 qırıcıları da daxil olmaqla 140-a yaxın təyyarə qatılacağı, ABŞ-dan isə F-35B qırıcıları da daxil olmaqla, təxminən 100 təyyarə göndəriləcəyi qeyd edilib.

Qeyd edilib ki, planlaşdırılan fəaliyyətin məqsədi Cənubi Koreya və ABŞ Hərbi Hava Qüvvələri arasında hərbi dövrdə kombinə edilmiş hava əməliyyatları sistemlərinin sınaqdan keçirilməsi, həmçinin onların döyüş hazırlığının artırılmasıdır.

## Moldova hava hücumundan müdafiə sistemlərini gücləndirir



Moldova hökuməti hava hücumundan müdafiə sistemləri almaq niyyətindədir.

Bu barədə Moldova parlamentinin spikeri İqor Qrosu oktyabrın 18-də keçirdiyi mətbuat konfransında bildirib.

"Biz başa düşdük ki, müdafiə sistemlərimizə sərmayə qoymalıyıq. Müdafiə nazirinin son bəyanatında deyilir ki, təəssüf olsun, Rusiya Moldovanın hava məkanının üç raketlə pozması faktını etiraf etməyə tələsmir. Biz təəccüblənmirik. Bu, yalnız bizim hava məkanımızı pozan raketləri və təyyarələri izləmək deyil, həm də bu cür cəhdləri dayandıran sistemləri işə salmaq üçün imkanlar axtarmaq qərarımızı gücləndirir", - deyə Qrosu bildirib.

Hava hücumundan müdafiə sistemlərinin alınması ilə bağlı xərclərə gəlincə, Qrosu qeyd edib ki, qiymətləndirməyə Müdafiə Nazirliyinin nümayəndələri cəlb olunmalıdır.

## Bosniya və Herseqovinada 20 ölkənin iştirakı ilə hərbi təlimlər başlayıb



Avropa İttifaqının (Aİ) sülhməramlı missiyası (EUFOR) tərəfindən Bosniya və Herseqovinada hərbi təlimlər keçirilir.

"EUFOR-Sürətli cavab 2022" adlı təlimdə 20 ölkədən 250 əsgər iştirak edəcək.

Noyabrın 22-dək davam edəcək təlimlər şəhər və kənd yerləri də daxil olmaqla ölkənin müxtəlif ərazilərində keçiriləcək.

## Böyük Britaniya Ukraynaya hava hücumundan müdafiə raketləri bağışlayacaq



Böyük Britaniya Ukraynaya hava hücumundan müdafiə raketləri bağışlayacaq.

Böyük Britaniya Müdafiə Nazirliyi bununla bağlı bəyanat verib. Ukraynaya hava hücumundan müdafiə raketləri, o cümlədən qanadlı raketləri vura bilən Qabaqcıl Orta Mənzilli Havadan-Havaya Raketləri (AMRAAM) hədiyyə ediləcəyini açıqlayıb.

Bəyanatda deyilir ki, "ABŞ-ın öhdəliyinə götürdüyü Milli Qabaqcıl Yerdən Havaya Raket Sistemi (NASAMS) ilə birlikdə istifadə üçün yaxın həftələrdə veriləcək AMRAAM raketləri Böyük Britaniya tərəfindən Ukraynaya hədiyyə edilən və kruizləri vura bilən ilk raketlərdir. Ukraynanın hava hücumundan müdafiəsini dəstəkləmək Britaniyanın hərbi dəstəyi üçün prioritet olub və belə də qalır".

Böyük Britaniyanın müdafiə naziri Ben Uolles deyib ki, bu silahlar Ukraynaya səmalarını hücumlardan qorumağa və gücləndirməyə kömək edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# “N” hərbi hissəsində əsgər və zabit heyəti ilə görüş keçirilib





Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) təşkilatçılığı ilə Müdafiə Nazirliyinin "N" hərbi hissəsində əsgər və zabit heyəti ilə görüş keçirilib.

BŞGİBİ-dən AZƏRTAC-a bildiriblər ki, tədbirdə hərbi hissənin zabiti mayor Mirdaməd Nağıyev, Qaradağ rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Abbasov, Baş İdarənin gənclərlə iş sektorunun müdiri Zamin Əhmədov iştirak ediblər.

Görüş iştirakçıları əsgərlər və zabitlər qarşısında çıxış edərək tədbirin məqsədinin əsgərlərə xoş ovqat bəxş etmək, yeniyetmə və gəncləri hərbi xidmətə həvəsləndirmək, onlarda milli vətənpərvərlik ruhunu yüksəltməkdən ibarət olduğunu qeyd ediblər.



Sonra əsgər və zabitlər arasında "Breyn-ring" intellektual oyunu keçirilib.

Qalib komandalar Baş İdarə tərəfindən medal, fəxri fərman və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

Sonda incəsənət nümayəndələri konsert proqramı ilə çıxış ediblər.

# “Kitablar bizim üçün çox qiymətli və dəyərli hədiyyədir”

Müdafiə Nazirliyinin təşkilatçılığı və İrəli İctimai Birliyinin dəstəyi ilə təşkil olunan "Əsgərin kitab rəfi" adlı kitab toplama aksiyasında toplanan kitablar növbəti dəfə yeni sahiblərinə çatdırıldı.

Qeyd edim ki, əsgərlərimizin asudə vaxtlarının səmərəli keçirilməsi və mütaliəyə marağının artırılması məqsədilə cari ilin may ayında start götürən "Əsgərin kitab rəfi" aksiyası çərçivəsində toplanan kitablar işğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlərə üstünlük verməklə bütün hərbi qulluqçularımıza çatdırılır.





Növbəti dəfə Qubadlı rayonunda xidmət edən Vətən müdafiəçilərinə çatdırılan elmi, bədii, publisistik və digər janrlarda olan kitablar şəxsi heyətin böyük marağına səbəb oldu. Kapitan Nəcəf Nəcəfli bildirdi ki, ordu sıralarında xidmət edən gənclərin asudə vaxtlarının düzgün təşkili də komandirlər qarşısında duran mühüm vəzifələrdən biridi.

"Şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı mənəvi-psixoloji durumları da yüksək olmalıdır. Hər bir komandir çalışır ki, əsgərlər yüksək döyüş ruhunda, heç bir çətinlik çəkmədən uğurlu xidmət etsin. Bunun üçün də komandir heyəti tələbkarlıqla yanaşı həm də şəxsi heyətə daim diqqət və qayğı göstərirlər. Onların yeməyinin, geyiminin, istirahətinin qaydasında olmasını hər zaman diqqətdə saxlayırlar. Bu işlər arasında asudə vaxtın düzgün təşkili mühüm yer tutur. Ümumiyyətlə, asudə vaxt şəxsiyyətin hərtərəfli inkişafı, fiziki, mənəvi və estetik mədəniyyətini yüksəltmək üçün ən gözəl vasitədir. Ona görə də bütün bölmələrimizdə bu məqsədlə sinif və ideoloji otaqlar yaradılıb. Asudə vaxt zamanı əsgərlər bu otaqlarda qəzet və jurnallardan bəhrələnərək hərbi bilikləri artırır, bədii kitablar oxuyur, tariximizdən bəhs edən filmlər izləyir, dama, şahmat kimi stolüstü idman oyunları oynayırlar. "Əsgərin kitab rəfi" layihəsi çərçivəsində bizə gətirilən kitablar da asudə vaxtın səmərəli təşkili üçün mühüm əhəmiyyət kəsb edəcək. Kitab oxumağın insan üçün çox faydalı olduğu hər kəsə bəllidir. Şəxsi heyət bu kitablardan istifadə edərək dünyagörüşünü, maraq dairəsini artıracaq . Bu təqdirəlayiq layihənin təşəbbüskarlarına və bu kitabları bizə hədiyyə göndərən xalqımıza dərin minnətdarlığımızı bildiririk".

Kitabın faydalarından danışan zabit, oxumağın sağlamlığa müsbət təsir etdiyini, beyni sağlam saxladığını da qeyd etdi. "Hər hansı bir əzələ kimi, beynin də sağlam və güclü qalması üçün məşq etdirilməlidir. Oxumağı beyin üçün ağırlıq qaldırma kimi düşünün. Əslində tez-tez beyin məşqi etmək zehni geriliyi xeyli azaldır. Buna görə də mütəmadi kitab oxumaq məsləhətdir. Kitabı oxuyarkən mövzunu başa düşmək üçün müxtəlif obrazları, süjet xəttini xatırlayır, baş verənləri analiz edir və proqnozlaşdırırıq. Bu da zehnimizi canlandırır, diqqətimizi və konsentrasiyamızı inkişaf etdirir".

Sevinclə və maraqla kitabları oxuyan əsgərlər də bu layihədən razılıqlarını bildirdilər. Əsgərlər Cəlal Musayev, Şamxal Tanrıverdiyev, Adəm Əliyev və digərləri belə dəyərli hədiyyəyə görə xaqlımıza təşəkkürlərini bildirdilər. "Kitablar bizim üçün çox qiymətli hədiyyədir. Həmçinin bu layihə xalqımızın diqqət və qayğısının daim bizimlə olduğunun göstəricisidir. Asudə vaxtlarımızda ən sevdiyimiz məşğuliyyətlərimizdən biri də kitab oxumaqdır. Kitablar bizim məlumat bazamızı zənginləşdirir, söz ehtiyyatımızı, natiqlik qabiliyyətimizi artırır, müxtəlif mədəniyyətlərlə tanış edir. Oxuduğumuz hər obraz bizi fərqli həyat, insan xarakterləri haqqında məlumatlandırır, fərqli sahələrlə tanış olmağımıza vasitə olur və bu da faydalı məlumatlar öyrənməyimizə, dünyagörüşümüzün artmasına kömək edir. Davamlı kitab oxumaq həm də təhsilə olan marağımızı da artırır. Ən əsası isə mənəvi-psixoloji hazırlığımıza müsbət təsir edərək, yüksək döyüş ruhu aşılayır".

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Ağırlıqqaldıranımız gənclər arasında Avropa birinciliyində 3 qızıl medal qazanıb



Azərbaycan ağırlıqqaldıranı İsa Rüstəmov Albaniyanın Dürres şəhərində keçirilən gənclər arasında Avropa birinciliyində 3 qızıl medal qazanıb.

Yarışda 67 kiloqram çəki dərəcəsində çıxış edən təmsilçimiz yaşı 23-dək olan idmançılar arasında qüvvəsini sınayıb.

Birdən qaldırma hərəkətində 131 kiloqram çəkinin öhdəsindən gələn atlet bütün rəqiblərini qabaqlayaraq, qızıl medala sahib çıxıb. Təkanla qaldırmada 162 kiloqramı ram edən "Qartal" klubunun təmsilçisi bu hərəkətdə də birinci yeri tutub. İ.Rüstəmov toplam 293 kiloqram (131+162) nəticə göstərərək, yekun sıralamada da hamıdan güclü olub.

## Yunan-Roma güləşçilərimiz U-23 dünya çempionatında 1 qızıl və 2 gümüş medal qazanıblar



İspaniyanın Pontevedra şəhərində güləş üzrə U-23 dünya çempionatında 55 kiloqram çəki dərəcəsində mübarizə aparan yunan-Roma güləşçimiz Nihat Quluzadə final görüşündə iranlı Poya Marzla üz-üzə gəlib. Rəqibinə 1:5 hesabı ilə uduzan N.Quluzadə gümüş medalla kifayətlənib.

Digər yunan-Roma güləşçimiz Nihat Məmmədli (60 kq) təsnifat mərhələsində qazaxıstanlı Oljas Sultana qalib gəlib - 5:0. N.Məmmədli səkkizdəbir finalda hindistanlı Sumit Sumitə heç bir şans tanımayıb - 9:0. Güləşçimiz növbəti mərhələdə ukraynalı Vladislav Kuzkoya gücünü göstərərək (4:1) adını yarımfinala yazdırıb. Millimizin üzvü yarımfinalda qırğızıstanlı Nurmuxammet Abdullayevə 3:1 hesabı ilə qalib gələrək finala adlayıb. N.Məmmədli həlledici görüşdə türkiyəli güləşçi Kerem Kamala məğlub olaraq (0:8) gümüş medala sahib olub.

Qurban Qurbanov (72 kq) ilk mərhələdə fransalı Yanis Nifrini 7:2 hesabı ilə üstələyib. Q.Qurbanov səkkizdəbir finalda estoniyalı Randel Uiboya vaxtından əvvəl qalib gəlib - 8:0. İdmançımız dörddəbir finalda iranlı Əmir Abdini sonuncu xal prinsipinə əsasən (1:1) məğlub edərək yarımfinala yüksəlib. Güləşçimiz yarımfinalda ukraynalı İrfan Mirzoyevə 7:1 hesabı ilə qalib gələrək finala vəsiqə qazanıb. Təmsilçimiz finalda xorvatiyalı Pavel Puklaveçlə üz-üzə gəlib. Görüşün əvvəlindən təşəbbüsə yiyələnən güləşçimiz sonadək üstünlüyünü qoruyub və 8:2 hesablı qələbə ilə dünya çempionu olub.

Beləliklə, dünya çempionatına 6 idmançı ilə yollanan yunan-Roma güləşi üzrə millimiz mundialı 1 qızıl və 2 gümüş medalla başa vurub.

## Azərbaycanlı atıcıdan tarixi qələbə - son 20 ildə ilk dəfə



Azərbaycanlı atlet atıcılıq idmanı tariximizə düşəcək qələbə qazanıb. Atıcımız Nigar Nəsirova Misirin paytaxtı Qahirədə keçirilən atıcılıq üzrə dünya çempionatında bürünc medal qazanıb.

Təmsilçimiz 5.6 kalibrli tapançadan 50 metr məsafəyə atəşaçma yarışında üçüncü olub. Qadınlar arasında fərdi yarış növündə azərbaycanlı atlet 539 xal toplayıb.

Qeyd edək ki, dünya çempionatında bu idman növündə sonuncu qələbəmiz 2002-ci ildə olub.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Hüseynov Ramal Arzu oğluna məxsus AD № 0047882 nömrəli şəxsi vəsiqə yararsız hala düşdüyü üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 939
Nüsxə 4740